**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№326/1** **17 dekabr 2020-ci il**

## "Əmlakın qiymətləndirilməsinin auditinə dair tövsiyələr"in layihəsi barədə

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2020-ci il 25 sentyabr tarixli 322/3 nömrəli qərarına müvafiq olaraq Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən təqdim edilmiş və 2020-ci il 10 noyabr tarixli 323/4 nömrəli qərarına əsasən yenidən işlənib hazırlanmış "Əmlakın qiymətləndirilməsinin auditinə dair tövsiyələr"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Əmlakın qiymətləndirilməsinin auditinə dair tövsiyələr" bəyənilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2005-ci il 19 yanvar tarixli 144/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmlakın qiymətləndirilməsinin auditinə dair proqram" qüvvədən düşmüş hesab edilsin.
3. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində "Əmlakın qiymətləndirilməsinin auditinə dair tövsiyələr"in auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.
4. Bu qərarın və "Əmlakın qiymətləndirilməsinin auditinə dair tövsiyələr"in mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**